Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

**Faiq Ələkbərli**
**dosent, fəlsəfə üzrə fəlsəfə doktoru**

III YAZI

# Məhəmməd Ağa Şahtaxtlının milli maarifçilik və siyasi-ideoloji baxışları

***Türkçülük və Azərbaycan türkçülüyü məsələsinə gəlincə, Məhəmməd Ağa Şahtaxtlı yazırdı ki, avropalılar 18 əsrin sonlarında bir çox sahələrdə inqilab etməklə cəmiyyəti dəyişməyin insanın öz əllərində olduğunu sübut etdi. Haklbuki 19-cu əsrə qədər avropalılar da millət dedikdə dini başa düşürdülər. Ancaq 19-cu əsrdən din ilə milləti bir-birindən ayırdılar və dedilər ki, millət bir dildə danışan, eyni mədəniyyət və adət-ənənələr malik cəmiyyətlərə aiddir. O, yazırdı ki, bu gün müsəlmanlar islama tapınan bütün xalqların ümumiliynə millət dedikləri halda, artıq avropalılar eyni tayfadan, cinsdən, dildən olanları "natsiya"-millət mənasında qəbul edirlər. Bu baxımdan avropalılar kimi din mənsubiyyətlə etnik mənşəyi bir-birindən ayırmağı mühüm hesab edən Şaştaxtlı yazırdı ki, "indi osmanlıcada yevropalıların nasion kəlmələrini əksəriyyən millət kəlməsi ilə tərcümə edib, bəzən də qövm və cins kəlmələrini onun yerinə işlədirlər. Bunların amma heç biri nasion kəlməsinin əsl mənasını ifadə etməyir. Bu baxımdan lazım görürəm ki, tamam Avropada müstəməl olan və mənasını yuxanda zikr etdiyimiz nasion kəlməsini indilik eynən qəbul edək. Sonradak "nasion" mənasına olmaq üzrə öz sözlərimizdən birini onun yerinə qoymaq güc olmaz". 1***



Şahtaxtlı yazırdı ki, insan dünyada tək və yaxud ailəsindən ibarət yaşaya bilməz, ona görə də "nasion"un varlığı, rifahı, gələcəyi uğrunda çalışmalı, şəxsi maraqlarını millətin maraqları ilə uzlaşdırmalı, "nasion"a qurban verməlidir. Çünki insan tək, "nasion" cəmdir, tək məhv olsa da, cəm qalacaqdır: "Öz mənfəətimi nasionumun mənfəətinə fəda etməliyim. Həm də edərsəm, böyük-böyük fədakarlıq etmiş oluram. Çünki mən özüm, aba və əcdadım, övlad-əyalım hamımız nasionun ayrılmaz parçası deyilmiyiz? Nasiona etdiyim fədakarlığı özümə etmirəmmi?". 2

Şahtaxtlıya görə, nasionun varlığını sübut edən ilk amil dildir. Bolqar, ispan, alman, fransız və başqalarını ilk növbədə dillərinə görə nasion hesab edilir. Onun fikrincə, bu məsələdə Rusiyada yaşayan başqa türk və tatar qövmlərində dil dərdi, qeydi yoxdur: "Çünki bir-birimizə əl verib ümumi heyətimizi saxlamaq hissi, nəslimizi dünyada saxlamaq dərdi yoxdur ki, nəslimizin varlığının mabeülqəvamı olan dilimizi saxlamağa və yaxşılaşdırmağa çalışaq. Ümumi ilə xüsusinin, cüz ilə küllün nasionla ona mərbut olan fərdin arasındakı rəbt və şirazə bizim içimizdə kəsilib, pozulmuşdur. Biz tək-tək yaşayan insanüma məxluqlarız. Diri bir nasionun qövm və cinspərvər əfradı deyiliz. Tək-təkdə, fərdəbəfərd biz diriyiksə də, heyəti-ümumiyyətə, nasionca biz ölüyüz. Dil isə dirilərə lazımdır. Ölülərin nəyinə yarar?". 3

Ona görə, Türk xalqlarının həyatı Türk dilinin vücuduna bağlıdır, millət dirilərsə, biz də yaşarız. 4 O, yazırdı: "Rusiyada yaşayan müsəlmanların çoxü türk və tatar qövmünə mütəəlliqdir. Türk dili ki, bu qövmlər danışırlar ümdə iki qismə bölünür: biri şərqi, biri qərbi. Şərqi türkcəsi cığatay dilidir ki, onun ilə Qazan türkcəsinin arasında fərq çox azdır. Hər ikisi bir bildir, bir ləhcədir".5 "Qərbi türkcə Osmanlı ilə Azərbaycan türkcəsidir. Osmanlı türk dili ilə Azərbaycan türk dilinin arasında demək olar ki, heç fərq yoxdur", 6 deyən Şahtaxtlı daha sonra yazırdı: "Bu dil osmanlı dilidir ki, azərbaycancanın eynidir. Bu dil azərbaycancadır ki, osmanlıcanın eynidir. Azərbaycan osmanlısıdır və ya osmani azərbaycanlısıdır. Bir sözlə türkcədir. Bu türkcəni bir az intizamla işlətsək az vaxtda gözəl ümumi bir dil olur ki, rusca, ingiliscə, ərəbcə kimi insanların fikir alveri üçün mükəmməl bir alət olur. Ən vacib şey fellərin və isimlərin siğələrini səhih bir qayda ilə həmişə bilatəğyir bir şəkil və surətdə istemal etməkdir". 7

***Yeri gəlmişkən, vaxtilə M.Şahtaxtlı 1891-ci il "Kaspi" qəzetində "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?" məqaləsində yazırdı ki, ruslar Zaqafqaziyanın islam əhlini müsəlman adlandırırlar ki, bu da, müsəlmanların özlərindən qaynaqlanır. Son zamanlar isə ruslar onları tatar adlandırmağa başlayıblar ki, bu heç də uğurlu deyildir: "Zaqafqaziya müsəlmanlarının danışdığı dil tatar dili deyil, türk dilidir ki, o da öz növbəsində əsas dialektlərə ayrılır: osmanlı, səlcuq və azərbaycanlı türkcələri".*** 8 O yazırdı ki, Zaqafqaziya müsəlmanları tatar deyilsə, heç fars da deyildir: "Zaqafqaziya müsəlmanlarını azərbaycanlılar, onun dilini isə Azərbaycan dili adlandırmaq çox yerinə düşərdi. Böyük bir hissəsinin İrandan Rusiyanın payına düşmüş Aderbedjan (Azərbaycan) mahalı-indiki Zaqafqaziyadır, əhalisi də türk xalqıdır. Onları həm Şərq yazıçıları, eləcə də Avropa coğrafiyaçıları və etnoqrafları başqa adla yox, ancaq Azərbaycan türkləri adlandırırlar. Gündəlik həyatımızda xalqın adını və dilinin adını iki sözlə ifadə etmək rahat deyil: məsələn azərbaycanlı türk və yaxud aderbedcanlı türk dili. Ona görə də Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya türk dilini isə tatar dili əvəzinə Azərbaycan dili adlandırmaq məqsədəuyğun olardı". 9

Görünən odur ki, Şahtaxtlı sonralar "Azərbaycan dili", "azərbaycanlı" məsələsinin üzərində israr etməmiş, bu baxımdan "Şərqi-Rus" qəzetində Osmanlı türkləri ilə Azərbaycan türklərinin bir olması, yəni etnik mənşə və dil baxımından uyğun olaraq Türk, Türk dili adlanmasını ifadə etmişdir. Beləliklə, Şahtaxtlı hesab edirdi ki, cəmiyyətin həyatında əsas məsələ dini ruh deyil, milli ruhdur. O, yazırdı: "Bir ruhicüz var ki, hər bir insanın bədəninin həyatı onunladır. Bir də ruhi-küll var ki, o, o məsələdən, o qaydayi-əsasiyyədən ibarətdir ki, bir qövmə, bir nasiona mütəəliq olan əbnayi-vətənin hamısı onun lüzumuna, vücuduna, həqqaniyyətinə ağılla, qəlblə, şövqlə möteqid olub, o məslək hər kəsdən qulluq, fədakarlıq, cansiparlıq meydanında hər nəyi istəsə, icab etsə can və başla əməl gətirirlər. Bu ruhi-küll hər nasion üçün öz qövmiyyətini paydar və baqi saxlamaqdan ibarətdir... Ruhi-küllisi olan nasionlar diridirlər və gələcəkdə də yaşayacaqlar. Ruhi küllisi olmayan millətlər isə ölüdürlər, meyitdirlər. Əgər indiki halda dilləri və özgələrdən ayrı qövmiyyətləri görünürsə, az vaxtda məhv olub gedəcək. Yəni nə nasionları qalacaq, nə dilləri və nə dinləri. Çün əsrimiz də dinlər, dillər ilə qaimidir". 10 Ona görə, məhv olmamağımız üçün, qonşu millətlər kimi mədəniyyət, ağıl və idrak sahibi olmalıyıq: "Mədəniyyətdə qonşularımıza yetişə bilərizmi? Ya özgə sözlə dünyada türk və tatar qövmimizin illər ilə deyil, yüz illərlə cahanı, kainatı qəbzeyiqüdrətinə keçirmiş o namlı, şanlı qövmizin həyatını təmin edə bilərmiyiz?". 11 Ona görə, yük çox ağır olsa da, mümkünsüz də deyil, çünki millətin arasında istedadlılar çoxdur.

Onun fikrincə, Osmanlılar milliyyət ideyasını "İttiahdi-İslam" kimi qəbul etdilər və avropalılara görə bu panislamizmidir. Halbuki Osmanlı "İslam birliyi" adı altında Avropa dövlətlərindən özünü qorumağa çalışır.12 Ancaq osmanlılardan fərqli olaraq Rusiya istilası altında olan Quzey Azərbaycan türkləri milliyyəti din yox, etnos mənasında qəbul etmişdir. Eyni zamanda, Şahtaxtlıya görə, bütün azadlıqlarda Azərbaycan türkləri başqa Türk xalqlardan və müsəlmanlardan həmişə irəli olmuşdur: "Madam ki, biz – Azərbaycan türkləri ictimaiyyətdə hürriyyəti-əfkari qəbul etmişiz və madam ki, bu hürriyyəti-əfkara meyil və cazibə bizim qövmi xasiyyətimizdir. Böylə olmasaydı, ismi Avropada dastanlara keçən gəncəli Mirzə Şəfi və ya M.F.Axundov kimi mücəssəm hürriyyət əfkarları bizim içimizdən nasıl nəşət edə bilərdi? Nə üçün biz hürri-əfkar olduğumuzu təcəlli etdirməyəlim? Bəli, biz ictimaiyyətdə hürriyyəti-əfkar sahibləriyiz". 13

Şahtaxtlı Azərbaycan Cümhuriyyətinin dünyanın aparıcı dövlətləri tərəfindən tanınmasını böyük sevinclə qarşılamışdır. Şahtaxtlı yazırdı ki, əvvəlcədən Azərbaycan Cümhuriyyətinin Avropa dövlətləri tərəfindən tanınmasının heç bir problemi yox idi.14 Onun fıkrincə, Azərbaycan Cümhuriyyətinə bəzi Avropa dövlətlərinin, o cümlədən İngiltərənin əvvəlcədən qısqanclığı Osmanlı kimi Azərbaycan məmələktinin də türklərdən ibarət olması idi. İngiltərə və başqa Avropa dövlətləri Osmanlını parçalayıb Türk olmayan dövlətlər arasında bölüşdürdmək istədiyi kimi, uzun müddət Azərbaycan Cümhuriyyətini də tanımaq istəməmişdir. 15

***Şahtaxtlı Azərbaycan Cümhuriyyətinin dünyanın aparıcı dövlətləri tərəfindən tanınmasını böyük sevinclə qarşılamışdır. Şahtaxtlı yazırdı ki, əvvəlcədən Azərbaycan Cümhuriyyətinin Avropa dövlətləri tərəfindən tanınmasının heç bir problemi yox idi.14 Onun fıkrincə, Azərbaycan Cümhuriyyətinə bəzi Avropa dövlətlərinin, o cümlədən İngiltərənin əvvəlcədən qısqanclığı Osmanlı kimi Azərbaycan məmələktinin də türklərdən ibarət olması idi. İngiltərə və başqa Avropa dövlətləri Osmanlını parçalayıb Türk olmayan dövlətlər arasında bölüşdürdmək istədiyi kimi, uzun müddət Azərbaycan Cümhuriyyətini də tanımaq istəməmişdir***

***Beləliklə, biz görürük ki, Şahtaxtlının dünyagörüşündə də bir sıra ziddiyyətlər müşahidə olunmuşdur. O, daha çox Qərb mədəniyyətinə bağlı olub islamlıq məsələsində həddən artıq ifrata varmışdır. Bizcə, onun Qərb mədəniyyətinə həddən çox meyil göstərməsi və onu bir nicat yolu kimi görməsi doğru olmamışdır. Digər tərəfdən o, Qərb mədəniyyətini nicat yolu kimi gördüyü bir zamanda ona tamamilə əls bir ideya oalraq islamlığı seçmiş və yeri gəldi-gəlmədi İslam dinini ifrat formada tənqid etmişdir. Əlbəttə, Şahtaxtlının islamlıq məsələsindəki tənqidi baxışlarında, ya da Qərb mədəniyyətinin müsbət tərəfləri ilə bağlı şərhlərində müəyyən həqiqətlər var idi. Ancaq o, bu məsələlərdə bəzən kor-koranə hərəkət edir, bir çox məqamlarda milli mentalitetə çox da uyğun gəlməyən Qərb dəyərlərinin bütövlükdə türk-islam xalqlarında da gerçəkləməsini mümkün hesab edirdi. Onun bu cür düşüncələri, öz dövründəki türklük və islamlıq tərəfdarı ziyalılar tərəfindən də ciddi tənqid olunmuşdur.***

1 Yenə orada, s.128
2 Yenə orada, s.129
3 Yenə orada, s.130
4 Yenə orada, s.130
5 Yenə orada, s.197
6 Yenə orada, s.197
7 Yenə orada, s.198
8 Yenə orada, s.28
9 Yenə orada, s.28-29
10 Yenə orada, s.150
11 Yenə orada, s.151
12 Yenə orada, s.202-203
13 Yenə orada, s.217
14 Yenə orada, s.221
15 Yenə orada, s.222

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur*